*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 17 yanvar 2015-ci il | № 4 (1920) | Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə dövlət səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Türkiyə Respublikasına dövlət səfərinə gedib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin birgə həyata keçirdiyi layihələrin əhəmiyyətinə toxunuldu, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin önəmi vurğulandı. Azərbaycan-Türkiyə əlaqələrinin regional əməkdaşlığın gücləndirilməsinə töhfə verdiyi qeyd edildi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının zəruriliyi bildirildi. Ölkələrimiz arasındakı dostluq əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbirə gedib.

Dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət edib.

Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.

* * *

Yanvarın 15-də Türkiyə Respublikası Prezidentinin Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Türkiyənin rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana təqdim edildi.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

Görüşdə Türkiyə ilə Azərbaycan arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimizin enerji və nəqliyyat sahələrində birgə həyata keçirdiyi qlobal layihələrin əhəmiyyəti xüsusi qeyd olundu. Söhbət zamanı Türkiyənin "Böyük 20-liyin" növbəti görüşünə ev sahibliyi etməsinin önəmindən danışıldı.

Prezident İlham Əliyev həmin tədbirə dəvətə görə Prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirdi, bu dəvət Azərbaycan ilə Türkiyə arasında dostluq münasibətlərinin nümunəsi kimi dəyərləndirildi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyi qeyd edildi. Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirdilər.

* * *

Yanvarın 15-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının dördüncü iclası keçirilib.

İclasda Azərbaycan ilə Türkiyə arasında iqtisadiyyat, enerji, energetika, nəqliyyat, müdafiə, humanitar sahələrdə əməkdaşlığın perspektivləri, Bakı-Tbilisi-Qars, TANAP layihələri ilə bağlı işlərin uğurlu gedişi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi müzakirə olunub. İkitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

Yanvarın 15-də Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının dördüncü iclasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.



"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 15 yanvar 2015-ci il tarixində keçirilmiş dördüncü iclasının nəticələrinə dair Birgə Bəyanat"ı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

* * *

Yanvarın 15-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatla çıxış ediblər.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Hörmətli cənab Prezident, dəyərli qardaşım.

Əvvəla, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının dördüncü iclasının başa çatmasının məmnunluğu içindəyik.

Bu iclasda - istər ikitərəfli görüşümüzdə, istərsə də nümayəndə heyətləri arasında görüşlərdə bir çox nazirlərimizin öz ikitərəfli fəaliyyətlərini və bundan sonra da birgə keçirdiyimiz iclasda Azərbaycan-Türkiyə əlaqələrini, dünəndən bu günə haraya gəldik - bunları dəyərləndirdik. Bölgənin problemlərini, bundan sonra atacağımız addımları müzakirə etdik. 2013-cü ilin noyabrında rəsmi səfər, 2014-cü ilin iyununda isə Bodrumda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Toplantısı ilə əlaqədar Zati-alilərini qonaq qəbul etmişdik. Mən də Prezident vəzifəsinə seçiləndən sonra xarici ölkələrə ilk səfərlərimdən birini, bildiyiniz kimi, Azərbaycana etmişdim.

Bu gün də hörmətli Prezident Əliyev, dəyərli qardaşım nümayəndə heyəti ilə 2015-ci ilin ilk rəsmi səfərini Türkiyəyə etməklə həqiqətən bizi məmnun etdi. Bir daha da sizlərin hüzurunuzda dəyərli qardaşıma və nümayəndə heyətinə "Ölkəmizə xoş gəldiniz!" deyirəm.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qardaş Azərbaycan ilə aramızdakı bütün əlaqələri - istər hərbi, istər siyasi, istər iqtisadi, istər ticari, mədəniyyət və təhsil sahələrində daha yüksək səviyyəyə çatdıracağına heç şübhə etmirik. Bu mexanizmin uğurla işləməsi atacağımız addımların daha güclü olacağını göstərir.

Siyasi sahədə Türkiyə ilə Azərbaycan arasında hər hansı bir problemdən söhbət belə gedə bilməz. Hərbi sahədə əməkdaşlığımız artaraq davam edir. İqtisadi-ticari əlaqələr sahəsində ticarət dövriyyəsi bu il 5 milyard dollara çatdı, belə bir səviyyəyə nail olduq. Amma təbii ki, bizim əsas hədəfimiz bu göstəricini 2023-cü ildə 15 milyard dollara çatdırmaqdır. Əminəm ki, bu əzm, bu qətiyyət, bu siyasi iradə hər iki ölkədə vardır. Buna nail olmaq bu kadrların əlindədir. İnşallah, buna da nail olacağıq.

Son dərəcə ətraflı və səmimi fikir mübadiləsi apardıq, ikitərəfli əlaqələrimizə, milli təhlükəsizliyimizə dair mövzuları regional və beynəlxalq məsələlər çərçivəsində müzakirə etdik. Təbii ki, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı müzakirələrin hazırkı mərhələsində son məlumatları da öyrənmiş oluruq. Amma görünən odur ki, təəssüf, Minsk qrupu bu məsələdə hələ də qətiyyətli bir addım atmamaqla bu proses bir vaxt itirmə taktikası ilə davam etdirilir. Münaqişə ilə bağlı beynəlxalq qərarların qəbul edilməsinə baxmayaraq, bu prosesin hələ də vaxt itirmə taktikası ilə davam etdirilməsi üzücüdür. Xüsusən bu məqamı burada yenidən xatırlatmaq istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həlli istiqamətində Azərbaycana dəstəyimiz bundan sonra da eyni qətiyyətlə davam edəcəkdir. Son dərəcə həssas olduğumuz, hər fürsətdə də dilə gətirdiyimiz bu mövzuda Türkiyə olaraq bizim mövqeyimiz qətidir. Görüşümüzdə bu məsələləri də ayrıca müzakirə etdik və bundan geriyə addım atmağımız əsla mümkün deyildir.

Təbii ki, bütün bunlarla yanaşı, xüsusən strateji əməkdaşlıqda müdafiə artıq çox böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı, enerji iki ölkə arasında çox böyük önəmə malikdir. Bilirsiniz ki, artıq dünya layihəsinə çevrilən TANAP-la bağlı addımlar atıldı. Burada istər həm boru istehsalında və təminatında, istərsə də podrat xidmətlərində Türkiyə firmaları üstünlük təşkil edir. TANAP layihəsinin həyata keçməsi ilə birlikdə, təbii ki, Azərbaycanın mövqeyindən tutmuş Türkiyənin mövqeyi və buradakı strateji önəm daha çox artacaqdır. Bununla bağlı addımlar atıldı. 2015-ci il bu məsələdə böyük önəm kəsb edir.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, inşallah, bu ilin sonunda açılışa hazır olacaqdır. Bunun açılışını da, inşallah, hamımız birlikdə, Allah ömür versə, həyata keçirəcəyik. Bu, eyni zamanda, Pekin-İstanbul xəttinin açılması deməkdir. Marmarayın burada başa çatması ilə birlikdə bu xətt işlək vəziyyətə gəlib. Bu xətt İstanbuldan Bakıya, oradan ta Pekinə qədər uzanacaq. Bunlar belə bir sərmayələrdir. Ona görə bu sərmayələrin həqiqətən böyük önəmi vardır. Biz bununla bağlı bu prosesi, inşallah, uğurla davam etdirəcəyik.

Bütün bunlarla yanaşı, xüsusilə daha əvvəl tamamlanmış Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri də, bilirsiniz ki, bizim üçün strateji əhəmiyyətini qoruyub saxlayır.

Bu mövzu ilə bağlı atılması vacib olan digər önəmli addım da Qərbi Avropadan çıxan bir qatar, inşallah, bu dediyimiz dəmir yolu sistemi ilə Xəzər sahillərinə və oradan da Aktau və Türkmənbaşı limanları vasitəsilə Pekinə çatacaq. Burada bunu da xüsusilə qeyd etmək istərdim.

Bu il Türkiyə "G-20"-nin ev sahibidir. Biz "G-20"-nin ev sahibliyi məsələsində haqqımız olan bir səlahiyyətdən Azərbaycan üçün istifadə etdik. Bu il "G-20"-də Azərbaycan da bizim dəvətlimizlə yerini alacaq. İndi "G-20"-yə hazırlıq işlərindən başlayaraq, bu tədbirdə aparılacaq müzakirələrdə Azərbaycan bizimlə birlikdə olacaq.

Bu ilin digər mühüm tədbiri də bilirsiniz ki, 24 aprel - Çanaqqala döyüşünün 100-cü ildönümüdür. Aprelin 24-də keçiriləcək bu tədbir üçün dünyanın bir çox dövlət və hökumət rəhbərlərinə dəvət göndərdik. Amma təbii ki, xüsusilə İlham Əliyev qardaşımla birlikdə, inşallah, aprelin 24-də Çanaqqalada birlikdə olacağıq.

Mən bir daha Zati-alilərinin şəxsində nümayəndə heyətinin üzvlərinə "Ölkəmizə xoş gəlmisiniz!" deyir və bu iclasımızın hər iki ölkə üçün xeyirli olmasını Allahdan arzu edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Çox sağ olun əziz qardaşım, hörmətli cənab Prezident.

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Siz qeyd etdiyiniz kimi, bu il mən ilk rəsmi səfərimi Türkiyəyə - qardaş ölkəyə edirəm. Bu da təbiidir. Çünki bu, artıq gözəl bir ənənədir. Eyni zamanda, bu səfər bizə imkan verdi ki, bu il ərzində görüləcək işləri bir daha müzakirə edək və birgə fəaliyyət planımızı təsdiq edək.

Bu gün imzalanan Birgə Bəyanatda Türkiyə-Azərbaycan əlaqələrinin əvvəlki dövrü, görülən və görüləcək işlər öz əksini tapıbdır. Bu gün Strateji Əməkdaşlıq Şurasının dördüncü toplantısında müzakirə olunan məsələlər və bu məsələlərin həlli, əlbəttə ki, Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrini daha da yüksək pilləyə qaldıracaqdır.

Bizim əlaqələrimiz tarixi köklərə, xalqlarımızın qardaşlığına söykənir və bu gün bu əlaqələr dünyada ən yaxın əlaqələrdir. Bu gün dünyada Türkiyə və Azərbaycan kimi bir-birinə bağlı olan, yaxın olan ikinci ölkələr yoxdur və bu birliyi təsdiqləyən bir çox məqamlar var. Onlardan biri də əziz qardaşımın dediyi kimi, Türkiyənin Azərbaycanı "G-20"-yə dəvət etməsidir. Bu, bizim üçün böyük şərəfdir. İlk növbədə ona görə ki, bu dəvət Türkiyədən gəlmişdir və bu, həm Türkiyə və Azərbaycan xalqlarına, həm də bütün dünya xalqlarına bir daha göstərir ki, biz bir-birimizə nə qədər yaxınıq, bir-birimizə bağlıyıq. Bu dəvətə və Azərbaycana göstərdiyiniz bu diqqətə görə, əziz qardaşım, şəxsən Sizə minnətdaram və əminəm ki, Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələri bundan sonra da uğurla davam etdiriləcəkdir.

Biz, eyni zamanda, aprelin 24-də Çanaqqala zəfərini də birlikdə qeyd edəcəyik və bu tarixin seçilməsinə görə də öz adımdan və bütün Azərbaycan xalqı adından Sizə çox minnətdaram. Bu tarixin seçilməsi çox müdrik bir addımdır. Əminəm ki, bizim xalqlarımız bunu layiqincə qiymətləndirəcəklər.

O ki qaldı bugünkü toplantıya, əziz qardaşımın qeyd etdiyi kimi, bir çox məsələlər müzakirə olundu, qərarlar verildi, nazirlər öz aralarında görüşlər keçirdilər və əminəm ki, bütün bu məsələlərin həlli bizi bir-birimizə daha da yaxın edəcək.

Müdafiə sahəsində əməkdaşlıq artır. Biz Türkiyədən çoxlu silah-sursat alırıq. Eyni zamanda, artıq Azərbaycanda müdafiə sənayesi məhsullarının birgə istehsalı haqqında da bu gün fikir mübadiləsi aparılmışdır. Biz Türkiyənin böyük uğurlarına sevinirik. Türkiyə bu gün dünya miqyasında bir güc mərkəzidir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan bir o qədər güclü olacaq. Bizim gücümüz, əlbəttə ki, siyasi, iqtisadi və hərbi gücümüzdür. Ona görə, müdafiə sahəsində əməkdaşlığın dərinləşməsi üçün bizim böyük planlarımız var. Qeyd etməliyəm ki, keçən il bir neçə gün ərzində Azərbaycanda Türkiyə-Azərbaycan birgə hərbi təlimləri keçirilmişdir. Bu təlimlər bundan sonra mütəmadi qaydada keçiriləcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də müzakirə edildi. Bir daha cənab Prezidentə minnətdarlıq bildirdim ki, Türkiyənin mövqeyi dəyişməz olaraq qalır. Türkiyə bu məsələdə ədaləti, haqqı, beynəlxalq hüququ dəstəkləyir, öz qardaşlarını dəstəkləyir.

Bildiyiniz kimi, uzun illər Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan torpaqları işğal altındadır. Halbuki, BMT Təhlükəsizlik Şurası - dünyanın ən üst qurumu 4 qətnamə qəbul etmişdir ki, Ermənistan işğalçı qüvvələri bu torpaqlardan çıxsın. Bu qətnamələr icra edilmir. Bu, onu göstərir ki, Ermənistan sülh istəmir və əfsuslar olsun ki, Minsk qrupu da bu işlərdə heç bir nəticə hasil edə bilmir. Fəaliyyət var, ancaq nəticə, əfsuslar olsun ki, yoxdur. Keçən il danışıqlar prosesində müəyyən irəliləyiş müşahidə olunurdu. Ancaq Ermənistanın təxribat xarakterli addımları, xüsusilə işğal edilmiş torpaqlarda, Ağdam rayonu ərazisində noyabr ayında genişmiqyaslı təlimlər keçirməsi və Azərbaycan mövqelərinə hücum çəkməsi, əlbəttə ki, Azərbaycan tərəfindən layiqli cavabla qarşılandı, düşmən yerinə oturduldu. Ancaq bu, əlbəttə ki, danışıqlar prosesinə müsbət təsir göstərmədi. Bu münaqişə yalnız ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edəcək. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq.

Bu gün Türkiyə-Azərbaycan birliyi, əməkdaşlığı dünya çapında önəmli bir amildir və bu amili heç kim inkar edə bilməz. Ən böhranlı illərdə belə Türkiyə və Azərbaycan inkişaf edir, insanların rifah halı yaxşılaşır, dünya miqyasında bizim rolumuz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Bu, deməyə əsas verir ki, gələcək illərdə də Türkiyə və Azərbaycan inkişaf edəcək və biz daha böyük tərəqqi görəcəyik.

İqtisadi sahədə gözəl əməkdaşlıq var. Bu gün Şuranın iclasında rəqəmlər səsləndi. Son illərdə Azərbaycan Türkiyəyə və Türkiyə Azərbaycana milyardlarla dollar sərmayə qoymuşlar. 2020-ci ilə qədər Türkiyəyə qoyulacaq Azərbaycan sərmayələrinin həcmi 20 milyard dollara çatacaq. Türkiyə şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər və 10 milyard dollar həcmində layihələr icra etmişlər. Əlbəttə ki, "Cənub" qaz dəhlizinin icrası enerji sahəsindəki əməkdaşlığı daha da dərinləşdirəcək və burada biz artıq çoxtərəfli əməkdaşlığa qədəm qoyuruq. Burada Türkiyə, Azərbaycan, Gürcüstan və "Cənub" qaz dəhlizinin digər üzvləri fəal, birgə fəaliyyət göstərməlidirlər. Gələn ay Bakıda "Cənub" qaz dəhlizinin birinci məşvərət şurası keçiriləcəkdir. Şuranın iclasında bu layihənin icrası ilə bağlı konkret, dəqiq tövsiyələr veriləcək.

Mən onu da qeyd etməliyəm ki, "Cənub" qaz dəhlizinin təməli təxminən 3 il bundan əvvəl İstanbulda qoyulmuşdur. Əziz qardaşımla biz TANAP layihəsinə imza atdıq. TANAP layihəsi əslində "Cənub" qaz dəhlizinin bel sütunudur, yəni, təməlidir. Beləliklə, bizim qəbul etdiyimiz qərar bu gün dünyanın çox böyük layihəsinə çevrilmişdir. "Cənub" qaz dəhlizi və "Şahdəniz" yatağının işlənilməsi hazırda Avropanın ən böyük infrastruktur layihəsidir. Bu layihəyə ümumilikdə 45 milyard dollar sərmayə qoyulacaq.

Digər məsələlərə gəldikdə, qeyd etməliyəm ki, həm Bakı-Tbilisi-Qars dəmir yolu, eyni zamanda, digər layihələr vaxtında icra ediləcək. Bu gün müzakirə olunan hər bir məsələ özlüyündə nəhəng, böyük bir layihədir. TANAP, Bakı-Tbilisi-Qars, digər layihələr, bunlar strateji əhəmiyyətə malikdir və burada Türkiyə və Azərbaycan aparıcı rol oynayır. Əminəm ki, bütün bu layihələr vaxtında icra ediləcək.

Bu il Türkiyədə bir neçə tədbir olacaqdır - Çanaqqala tədbiri, TANAP layihəsinin icrası ilə bağlı olan tədbir, digər tədbirlər. Yəni, Allah nəsib edərsə, bu il biz Türkiyədə tez-tez olacağıq və əziz qardaşımı, təbii ki, Azərbaycana bir daha dəvət edirəm. Bizim tez-tez görüşlərimiz olur. Bu görüşlər xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirir və Türkiyə-Azərbaycan gücünü daha da artırır.

* * *

Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına dövlət səfəri başa çatıb.

**AzərTAc-ın materialları əsasında**

# Müdafiə naziri Avropa İttifaqının xüsusi nümayəndəsini qəbul edib



***Yanvarın 14-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər və qarşılıqlı maraq doğuran digər problemlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq zamanı ermənilər təxribata cəhd göstərib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 14-də Füzuli rayonunun Horadiz kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən monitorinq başa çatıb. Monitorinq zamanı erməni silahlı bölmələri tərəfindən mövqelərimiz istiqamətində atəş açılıb.

Azərbaycan tərəfdən monitorinqdə iştirak edən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçisi Yevgeni Şarov bildirib ki, əvvəlcədən müəyyən edilmiş monitorinqin keçirilməsi qaydalarına uyğun olaraq Azərbaycan Silahlı Qüvvələrinin bölmələri düşmənə cavab atəşi açmayıb və monitorinqin başa çatmasına müvafiq şərait yaradılıb.

Müdafiə Nazirliyi bildirir ki, erməni tərəfi həmişə olduğu kimi istənilən vəziyyətdən istifadə etməklə bu cür çirkin əməllərə əl ataraq təxribat törətməklə vəziyyəti gərginləşdirməyə və beynəlxalq təşkilatları da buna cəlb etməyə cəhd göstərir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***16 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 51 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Hacıalılı kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Silahlı Qüvvələrimizin mövqeləri Tərtər rayonunun Göyarx, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Şuraabad, Kəngərli, Cəvahirli, Mərzili, Novruzlu, Şirvanlı, Sarıcalı, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# "Biz daha da güclü oluruq"

## Müdafiə naziri Hərbi Hava Qüvvələrinin döyüş hazırlığını yoxlayıb

***Bu günlərdə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında geniş nitqlə çıxış edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bir daha ordu quruculuğu məsələlərinə toxunaraq bildirib ki, biz 2015-ci ildə ordu potensialımızı daha da gücləndirəcəyik.***



Dövlət başçımız qeyd edib ki, bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıb. "Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən artıqdır. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq..." Əlbəttə, ölkə rəhbərinin bu fikirləri onu deməyə əsas verir ki, dövlət siyasətinin ən başlıca istiqamətlərindən biri ordu quruculuğunu daha da inkişaf etdirmək və ölkənin hərbi potensialını gücləndirməkdir. Müasir dövrdə Azərbaycanın dövlət rəhbərliyi tərəfindən orduya göstərilən yüksək diqqət və qayğının nəticəsidir ki, güclü döyüş qabiliyyətinə malik olan doğma ordumuz formalaşıb. Hazırda ordunun şəxsi heyətində olan döyüş əhval-ruhiyyəsi belə bir fikrə istinad verir ki, dövlətin düşünülmüş ordu quruculuğu siyasəti hərbi qulluqçuları qarşıda duran vəzifə və tapşırıqları uğurla yerinə yetirmək üçün nümunəvi xidmətə ruhlandırır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun çıxışlarının birində qeyd olunduğu kimi, dövlət başçımızın hərbi sahəyə geniş diqqət ayırması hər bir əsgər və zabiti daha məsuliyyətlə xidmət etməyə, hər birimizi qarşıda dayanan mühüm bir vəzifənin yerinə yetirilməsinə - torpaqlarımızın işğaldan azad edilməsinə ruhlandırmalıdır. Doğrudan da, son 10 ildən artıq bir dövrdə orduya ayrılan hərbi xərclər əvvəlki illərlə müqayisədə dəfələrlə artırılıb. Hərbi hissə və birləşmələrin maddi-texniki bazası möhkəmləndirilməklə yanaşı, hərbi qulluqçuların sosial qayğılarına da böyük əhəmiyyət verilib. Artıq bütün bölgələrdə əsgərlərin məişət şəraiti müasir səviyyədə qurulur, şəxsi heyətin keyfiyyətli qidalanmasına və digər məsələlərin həllinə ciddi fikir verilir. Ön xətdəki bölmələrdə də döyüşçülər üçün müasir şərait yaradılır.



Bu gün dövlətimizin məqsədyönlü siyasətindən ruhlanan müxtəlif qoşun növlərinin şəxsi heyəti yeni 2015-ci tədris ilinə uğurla qədəm qoyub. Qədəm qoyduğumuz 2015-ci ilin ilk günlərindən ordu rəhbərliyi hərbi hissə və birləşmələrdə yeni tədris ilə bağlı məsələlərlə ciddi maraqlanır, şəxsi heyətin döyüş hazırlığının daha da gücləndirilməsi üçün konkret tapşırıq və tövsiyələrini verir.

Yanvarın 15-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Hava Qüvvələrinin döyüş hazırlığının vəziyyətini yoxlayıb. Nazirliyin Mətbuat Xidmətinin yaydığı məlumata görə, yeni tədris ilinin başlanması ilə əlaqədar keçirilən bu yoxlamalar zamanı qoşunların yüksək döyüş hazırlığı vəziyyətinə gətirilməsi, döyüş növbəsinin gücləndirilməsi, mühüm dövlət və hərbi obyektlərin, eyni zamanda qoşun qruplaşmalarının hücumda və müdafiədə mühafizəsi məqsədilə hava hücumundan müdafiə qoşunlarının fəaliyyəti və digər məsələlər məşq etdirilib.

Həmçinin, məlumatda bildirilir ki, Silahlı Qüvvələrimizin mühüm qoşun növlərindən biri olan Hərbi Hava Qüvvələrinin döyüş texnikalarına baxış keçirən Müdafiə naziri şəxsi heyətin təlim-döyüş vərdişlərini yüksək qiymətləndirərək qoşun komandanlığı qarşısında müvafiq tapşırıqlar qoyub.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri Hərbi Hava Qüvvələrinin yeni tikilən obyektlərinə baxış keçirib



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Hərbi Hava Qüvvələrinin aviabazaları ərazilərində tikinti və yenidənqurma işləri davam etdirilir.***





Hərbi obyeklərdəki vəziyyətə baxış keçirmək, həmçinin təmir və tikinti işlərinin keyfiyyətini yoxlamaq məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənov yanvarın 16-da Hərbi Hava Qüvvələrinin hərbi hissələrində olub.

Görülən işlərdən məmnun qalan Müdafiə naziri şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyini diqqətə çatdıraraq bu istiqamətdə fəaliyyətlərin sürətlə davam etdirilməsi barədə müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

20 Yanvar faciəsindən 25 il keçir

# Müstəqillik verilmir, alınır!..

***Orxon-Yenisey abidələrində bəngüdaşlardan birinə "Ey türk! Özünə dön, sən özünə dönəndə böyük olursan!" kəlamı həkk olunub. Bu kəlam xalqımıza da ünvanlanıb; varlığını, yaşamını təsdiqləmiş xalqın özünəqayıdışı çox möhtəşəm olur, zaman anlamında dünəninin qeyrət, qətiyyət qılıncı qınından bir ayrı biçim sıyrılır, torpaq, Vətən sevgisi bir ayrı biçim kükrəyir. Xalq varlığını tarixə daha qətiyyətlə möhürləyir...***



Tarix təsdiqləyir ki, xalqın milli-xəlqi ruhunun oyanışı heç bir qadağaya məhəl qoymur, ilhaqın (əsarətin) sərtliyindən sınmır, əyilmir. "Gülüstan" müqaviləsindən üzü bu yana ilhaq ağrılarından mənəvi sıxılcımlar çəkən xalqımız azadlığı (1920-ci ildə rus imperiyasının verdiyi şərti azadlıq anlamında) "zərrə-zərrə, qram-qram istəmirdi" (Xəlil Rza Ulutürk), "qolundakı zəncirləri qırmağa" qərar vermişdi...

Müstəqilliyin təşnəsi olmasaydıq, imperiyanın hədələrindən, müxtəlif miqyaslı, müxtəlif çeşidli təhdidlərindən geri çəkilsəydik, varlığımıza biganə qalsaydıq, naməlum vaxta kimi də olsa ilhaq sıxılcımları yaşamaqla razılaşsaydıq, 20 Yanvar faciəsi olmazdı...

Xalqımız bilirdi ki, azadlıq, müstəqillik verilmir, alınır. İstək azdı, istəyin dönməz cəfakeşi olmalısan. Xalq 1920-ci ildə itirilmiş müstəqilliyini bərpa etmək üçün varlığını imperiyanın siyasətinə sipər elədi...




O şənbə gecəsindən 25 il keçir...

Azadlığımız, müstəqilliyimiz naminə şəhid olanları təkcə yanvarın 20-si günü deyil, hər gün, hər an anırıq; 20-də hamılıqla anılan şəhidlərimiz müstəqil Azərbaycanımızın yaşıdlarıdır - tələbə şəhid də, qoca, yaşlı şəhid də, məktəbli şəhid də...

Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrində keçirilən anım tədbiri də mənəvi kamilliyin (həm də heyrətləndirici kamilliyin!) təsdiqi olan şəhidliyə, şəhidlərimizə müqəddəs ehtiramın təzahürüydü...

Bir dəqiqəlik anım sükutu hamının düşüncələrini bir mətləbə ad eləmişdi: şəhidlər əbədiyyən yaşayır, şəhidlər azadlığın ruh bayrağıdı...

Hərbi Dəniz Qüvvələri komandanının vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Ramil Əsgərov çıxışında azadlıq, müstəqillik istəyi ilə şəhidliyin ayrılmazlığını, onların bir-biri ilə bağlılığını qeyd etdi, onsuz da unudulmayan tarixləri xatırlatdı. 1918-ci ilin mart qırğınları Azərbaycan Demokratik Cümhuriyyətinin elan edilməsi ərəfəsində olmuşdu. Şəhidlər vermişdik, azadlıq, müstəqillik qazanmışdıq. Rus imperiyası Azərbaycan kimi zəngin təbii sərvətlərə, mühüm geosiyasi əhəmiyyətə malik bir ərazini əldən vermək istəmədiyindən Cümhuriyyət cəmi 23 ay yaşadı. 1990-cı il yanvarın 20-də rus imperiyası Azərbaycanın müstəqil dövlət kimi yenidən tarixə dönüşünün qarşısını almaq istədi. Bacarmadı. Faciə törətsə də bacarmadı. Şəhidlər verdik, azadlıq qazandıq...

O, çıxışında böyük tarixi şəxsiyyət, ən böyük azərbaycanlı olan Heydər Əliyevin bir kəlamını da xatırlatdı: azadlığı, müstəqilliyi qorumaq onu qazanmaqdan çətindir. Azadlığımızı, müstəqilliyimizi qorumaqda daha məsul, daha çətin, daha şərəfli vəzifələr hərbçilərin üzərinə düşür. Biz hərbçilər, bu sıradan dənizçi-hərbçilər bundan sonra da Vətən naminə daha şərəflə xidmət etməyə, şəhidlik bahasına əldə etdiyimiz dövlət müstəqilliyini qorumağa hazırıq...




Hərbi Dəniz Qüvvələri komandanının müavini 1-ci dərəcəli kapitan Natiq Bağırov çıxışında 20 Yanvar faciəsinin təzahürlərindən söz açdı, toplaşanların diqqətinə çatdırdı ki, həmin ərəfədə rus imperiyası Azərbaycana 66 min əsgər və zabit göndərmişdi. Hər 120 nəfərə bir hərbçi. Şübhəsiz ki, kifayət qədər hərtərəfli təlimatlandırılmış bu hərbçilər nə etməliydilərsə, etdilər. 147 nəfər şəhid oldu, 744 nəfər yaralandı. O fövqəladə vəziyyət elan edilənə qədər 82 nəfər qətlə yetirilmişdi. Bu, onu göstərir ki, imperiya xalqın iradəsini sındırmaq, onu azadlıq, müstəqillik niyyətindən birdəfəlik əl çəkməyə vadar etmək istəyirdi. Edə bilmədi. Şəhidlər verdik, azadlıq qazandıq...

Tədbirdə 20 Yanvar faciəsinə həsr olunmuş video-təqdimat çıxışların məzmununu tamamladı. Hər görüntü faciənin dəhşətlərini ifadə edirdi: qəddarcasına öldürülənlərimiz, yaralılara yardım eləməyə gedən güllələnmiş "Təcili yardım"lar, güllə nişanələri aydınlığıyla görünən divarlar, milyonların çiyinlərində az sonra "Şəhidlər xiyabanı" adlandırılacaq məkana aparılan şəhidlər, yumruqları düyünlənmiş 10-12 yaşlı uşaqlar, yollar boyu qan ağlayan qərənfillər...

H.Aslanov adına Mərkəzi Zabitlər Evinin bədii kollektivinin üzvlərindən əməkdar artist Rəhilə Bəndəliyevanın, Qoşqar Qasımovun, Elçin Məmmədovun oxumaları toplaşanlara o gecənin ağrılarını bir daha yaşatdı. O ağrılardan dikələn, o ağrıları da ayağa qaldıran bir təsəlli duydum: müstəqilik, şəhidlərimizin arzuladığı kimi!..

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

# İlqar o gecə yenidən doğuldu

***Xalqımız zamanın, dövrün sınaqlarından həmişə üzüağ çıxıb. Dövlətimizi, millətimizi yaşadan əsrlərin sınağından çıxmış milli-mənəvi dəyərlərimizdir. Çox qədim tarixə söykənən dövlətçilik ənənəsi xalqımızın yaddaşında dərin iz buraxıb. Zaman-zaman yadelli işğalçıların və nəhəng imperiyaların əsarəti altına düşsək də, yenə bir millət olaraq varlığımızı qorumağı bacardıq. Məqamında böyük mübarizələr apardıq, müstəqilliyimiz və azadlığımız uğrunda gedən haqq savaşında şəhidlər verdik. Böyük söz ustadımız Bəxtiyar Vahabzadənin məşhur "O gecə..." şeiri də bir xalqın mübarizə eşqinin ifadəsidir:***

***Azadlıq verilmir, alınır, dayan!***
***Onun elçisidir ölüm, qan-qada.***
***Ölümə, cəfaya hazır olmayan,***
***Millət hazır deyil azadlığa da.***

O zaman millətin içindən "Azadlıq məşəli" alovlandı. Xalq yetmiş ilin zülmünə, riyakarlığına daha dözə bilmədi. İkiüzlü siyasət yeridən imperiya əsarətinə bir gecənin içində - "Son!" - dedi. Qanlı 20 Yanvar faciəsindən doğan "azadlıq günəşi" səmamızda birdəfəlik parladı.

Bəli, o müdhiş gecədən 25 il keçir. Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin ölkəmizdə 20 Yanvar faciəsi ilə bağlı anım mərasimlərinin keçirilməsi barədə imzaladığı sərəncamdan irəli gələn tələblər, hər yerdə olduğu kimi, ümumtəhsil ocaqlarında da geniş qeyd olunur. Bu günlərdə Yasamal rayonunda şəhid İlqar İbrahimovun adını daşıyan 167 saylı orta məktəbdə olduq. Məktəb direktoru fizika-riyaziyyat elmləri namizədi, əməkdar müəllim Vaqif Quliyevlə görüşüb məktəbdə 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar keçirilən tədbirlərlə maraqlandıq. Vaqif müəllim bildirdi ki, İlqar İbrahimov bu məktəbin şagirdi olub. - O, cəmi 13 il ömür yaşayıb, - deyir müsahibim. - İlqar yeniyetmə olsa da, dövrün fəal məktəblilərindən olub. Yaşının az olmasına baxmayaraq, o müdhiş gecədə küçələrə çıxmaqdan və mübarizənin ön sıralarına qatılmaqdan çəkinməyib. İlqarın şəhid olması xəbəri məktəbdə hamını mütəəssir edib. Müəllim və şagird kollektivinin inadkarlığı ilə 1992-ci ildə onun xatirəsi əbədiləşdirilərək məktəbə onun adı verildi. Hər ilin 13 oktyabrını - İlqarın doğum gününü anım günü kimi qeyd edirik. Ötən il məktəbin həyətində İlqar İbrahimovun büstünün açılışı da oldu. Məktəbin foyesində İlqarın fotoşəkillərindən ibarət güşə də yaratmışıq.




Direktor müavini Rəna xanımın şəhid-məktəblinin həyatının şagirdlər arasında geniş təbliği ilə bağlı fikirləri də məndə maraq oyatdı. "Hər il onun həmyaşıdları - yeddincilər həmin gün Şəhidlər xiyabanını ziyarət edir, İlqarın məzarı üzərinə tər çiçək dəstələri qoyurlar. Sinifdə tədbir keçirir, "Şəhidlər ölməzdir" mövzusunda ədəbi-bədii kompozisiya nümayiş etdirir, ona həsr olunmuş şeirlər səsləndirir, xatirələr söyləyirlər. Həmin gün bütövlüklə ona həsr olunur. Bütün yeddincilər özlərini İlqarın yerində hiss edirlər. Bu, onların vətənpərvər ruhda böyüməsində mühüm rol oynayır".

Xalq müstəqilliyimiz uğrunda xidməti olan övladlarını unutmur. Onların xidmətləri illər ötsə də, layiqincə dəyərləndirilir və gələcək nəsillərə təbliğ edilir.

Azərbaycan dili müəllimi Sevda Acalova sevimli şagirdi İlqarı belə xatırlayır:

- İlqar çox sakit, sadə və mehriban, həm də yanımlı-dönümlü oğlan idi. Başqalarından heç nə ilə fərqlənmirdi. Özünü göstərməyi heç sevməzdi. Amma hadisələr başlamamışdan əvvəl şəhərimizdə gedən proseslərlə bağlı tez-tez qeyri-adi suallar verirdi. Hiss olunurdu ki, narahatdır. Əslində, bu narahatlıq yeddincilərin hamısında vardı. Ona görə də bizim dərslərin çoxu bu hadisələrin müzakirəsinə həsr olunurdu. 7-ci sinfin uşaqlarında da bir vətənpərvərlik ruhu vardı.

20 Yanvar gecəsi anası nə qədər çalışsa da, onu evdə saxlamağı bacarmamışdı. Bu, onun vətənpərvərliyindən doğan hissiydi. Böyüməkdə olan İlqar gələcəyə böyük ümidlərlə baxırdı. Mücahidlərlə o soyuq gecədə qızınmaq üçün küçədə ocaq qalayırdı. Ocaq sönməsin deyə İlqar ətrafdan odun, taxta parçası gətirirdi. Növbəti dəfə İlqar qucağında odun həyətdən çıxanda azğın düşmən gülləsinə tuş gəlmişdi…

İlqar onlarla həmvətənlisi kimi mənsub olduğu xalqın azadlığı və istiqlaliyyəti yolunda canını fəda etsə də, şəhid kimi yenidən doğuldu. Doğma xalqının qəlbində əbədiyyətə qovuşdu!..

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

# IV dərs

***Mövzu: "Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin, döyüşdə isə müvəffəqiyyətin əsas prinsipi və şərtidir"***

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin İntizam Nizamnaməsindən istifadə etməli, bölmədə hərbi intizamın vəziyyətini və xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipi və şərtidir.**

**2. Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir.**

***Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipi və şərtidir***

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri bu müqəddəs vəzifələri yerinə yetirmək üçün daim döyüşə hazır vəziyyətdə olmalıdır.

Möhkəm hərbi intizam yüksək döyüş hazırlıqlı və döyüş qabiliyyətli olmağın əsas şərtidir. Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir. Silahlı Qüvvələr Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Silahlı Qüvvələrin hərbi qulluqçuları bütün Azərbaycan vətəndaşları kimi Azərbaycan Respublikasının qanunlarının tələblərinə ciddi riayət etməlidirlər. Bununla yanaşı, Silahlı Qüvvələrdə hərbi intizamın öz xüsusiyyətləri var. Silahlı Qüvvələr sıralarına daxil olarkən Hərbi And içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi intizam İntizam Nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizam hərbi qulluqçuların şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına və Vətənə sonsuz məhəbbət bəsləmələrinə əsaslanır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində hərbi intizam anlayışı aşağıdakı kimi müəyyən edilir: "Hərbi intizam - bütün hərbi qulluqçuların Azərbaycan Respublikası qanunlarında və hərbi nizamnamələrində müəyyən olunmuş qaydalara ciddi riayət etməsi deməkdir".

İntizam Nizamnaməsinin 2-ci maddəsində göstərilir ki, hərbi intizam hər bir hərbi qulluqçunun hərbi borcunu və öz Vətəni Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsinə əsaslanır.

Hərbi intizam hər bir hərbi qulluqçudan:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etməyi, Hərbi Andın və hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirməyi, komandirlərin (rəislərin) əmr və sərəncamlarına sözsüz tabe olmağı;
- hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə tab gətirməyi, hərbi borcunu yerinə yetirərkən öz qanını və həyatını belə əsirgəməməyi;
- hərbi və dövlət sirlərini möhkəm saxlamağı;
- namuslu və doğruçu olmağı, hərb işini vicdanla öyrənməyi, ona tapşırılan silahı, döyüş texnikasını və digər texnikanı, hərbi əmlakı və xalq əmlakını hər vasitə ilə qorumağı;
- komandirlərə (rəislərə) və böyüklərə hörmət etməyi, əsgəri nəzakət və salamvermə qaydalarına əməl etməyi;
- hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparmağı, ictimai asayişin özü və başqaları tərəfindən pozulmasına yol verməməyi;
- vətəndaşların şərəf və ləyaqətinin qorunmasına hərtərəfli səy göstərməyi tələb edir.

Hər bir hərbi qulluqçu bilməlidir ki, yüksək hərbi intizama:

- hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaqla;
- hissədə (bölmədə) nizamnamə qaydalarına ciddi riayət etməklə nail olmaq olar.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur ki, Azərbaycanın mənafeyini qorusun; onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin; Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi Anda müqəddəs və sarsılmaz surətdə riayət etsin; intizamlı, vicdanlı, doğruçu və cəsarətli olsun; komandirlərə (rəislərə) danışıqsız tabe olsun və döyüşdə onları müdafiə etsin.

***Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir***

Döyüş - qələbə çalmağın yeganə vasitəsidir. Döyüşdə düşmənin darmadağın edilməsi və qələbə bütün silah növlərinin güclü zərbələri, zərbələrin nəticələrindən vaxtında istifadə etmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkətləri ilə əldə edilir.

Döyüşdə müvəffəqiyyətin qazanılmasında şəxsi heyətin şüurlu hərbi intizamı, komandirlərin əmrlərinin dəqiq və sözsüz yerinə yetirilməsi, intizamsızlığın, zəif icraçılığın, hərbi andın və müharibə dövrünün qanunlarının tələblərindən geri çəkilməyin qarşısının qəti alınması, yerli əhaliyə qarşı nalayiq hərəkətlərə və qarətçilik hallarına yol verilməməsi böyük əhəmiyyətə malikdir.

Müasir şəraitdə şəxsi heyətin intizamı və mütəşəkkilliyi daha böyük əhəmiyyətə malikdir. Bu, aşağıdakılarla bağlıdır:

- hərb işi inkişaf edir, hərbi hissələr yeni tipli silahlarla və döyüş texnikası ilə təchiz olunur, döyüş aparma üsulları kökündən dəyişir;
- müasir silahların bir çox növləri kollektiv istifadə olunur. Həmin silahların müvəffəqiyyətli tətbiqi ekipaj və heyət üzvlərinin, müxtəlif ixtisaslı hərbi qulluqçuların dəqiq, birgə və bacarıqlı hərəkətlərindən çox asılıdır. Ona görə də azacıq səhlənkarlıq və zəif icraçılıq döyüşdə əsassız itkilərə, hətta döyüş tapşırıqlarının yerinə yetirilməməsinə gətirə bilər;
- hərbi hissələrin texniki təminatının artması və mürəkkəbləşməsi ilə bağlı hərbi işdə gərginliyin artması, müasir müharibədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasının zəruriliyi.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın Silahlı Qüvvələri tərəfindən təcavüzə məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin bir hissəsi erməni silahlı birləşmələri tərəfindən işğal olundu.

Həmin illərdə ictimai-siyasi vəziyyət qeyri-sabit idi. Ölkədaxili çəkişmələr, respublika rəhbərliyinin dövləti idarəetmə sahəsində səriştəsizliyi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz mənfi təsirini göstərirdi. Vahid komandanlığın olmaması pərakəndə hissə və birləşmələrin həyat və fəaliyyətini tənzimləməyə və onlara nəzarət etməyə imkan vermirdi. Bu isə hərbi hissələrdə nizamnamə qaydalarının kobud surətdə pozulmasına, şəxsi heyətin hüquqlarının tapdalanmasına, fərariliyin kəskin surətdə artmasına, döyüş meydanının özbaşına tərk edilməsinə, komandirlərin əmrlərinə və göstərişlərinə tabe olmamağa gətirib çıxarırdı. Belə hərbi hissələrin bütün döyüş əməliyyatları uğursuzluqla nəticələnirdi.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli xahişilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunu öz xüsusi diqqətinə götürdü və qısa bir müddətdə Silahlı Qüvvələrimizin yüksək döyüş qabiliyyətli olması üçün təsirli tədbirlər gördü. 1993-cü ilin axırlarında, 1994-cü ilin yanvar-may aylarında Azərbaycan ordusunun apardığı döyüş əməliyyatlarının uğurlu olmasında vahid komandanlığın, möhkəm şüurlu hərbi intizamın böyük rolu vardır.

Ümummilli liderimiz 1993-2003-cü illərdə ordu quruculuğu ilə bağlı bütün çıxışlarında, Silahlı Qüvvələrin hissə və birləşmələrində şəxsi heyətlə bütün görüşlərində möhkəm hərbi intizamın əhəmiyyətini xüsusi vurğulamışdır. Belə görüşlərdən birində ümummilli lider Heydər Əliyevin dediyi **"Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır"** sözləri bu gün də bütün hərbi qulluqçuların Vətən, xalq və dövlət qarşısında məsuliyyətlərini çox dəqiq ifadə edir və onları intizamlı olmağa çağırır.

Azərbaycanın ərazi bütövlüyünün hələ bərpa edilmədiyi, torpaqlarımızın düşmən işğalında olduğu bir vaxtda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gündəlik həyatında hərbi intizamın əhəmiyyəti gündən-günə artır. 2014-cü tədris ilinin yekunları bir daha göstərir ki, möhkəm hərbi intizamın mövcud olduğu hərbi hissələr tədris ilində qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələ bilmişdir. Bu isə hər bir hərbi qulluqçudan 2015-ci ildə hərbi hissədə yüksək döyüş qabiliyyətinin saxlanılmasını, döyüş hazırlığının yüksəldilməsini, hissə və bölmənin tapşırıqlarının müvəffəqiyyətli həlli üçün öz vəzifə borclarını şüurlu dərk etməyi və onları vicdanla yerinə yetirməyi tələb edir. Azərbaycan Respublikasının hərbi qulluqçusu bir daha dərk etməlidir ki, yalnız möhkəm hərbi intizama malik olmaqla dərslərdə və təlimlərdə yüksək nəticələr əldə etmək olar.

Ümummilli liderin siyasi kursunun layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğunu daim diqqət mərkəzində saxlayır. Cənab Prezident öz çıxışlarından birində demişdir: **"Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".**

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

*Nəsillərə nümunə*

# “Cinahlardan zərbə” taktikasının mahir ustası

***İkinci Dünya müharibəsində faşizm üzərində böyük qələbənin qazanılmasında qüdrətli sərkərdə, görkəmli hərb xadimi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun müstəsna xidmətləri olub. Böyük sərkərdənin göstərdiyi əfsanəvi qəhrəmanlıqlar dünya hərb tarixinin səhifələrinə qızıl hərflərlə həkk olunub. Bu il sərkərdənin doğum tarixinin 105, döyüşlərdə qəhrəmanlıqla həlak olmasının 70 ili tamam olur.***



*"Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyaya tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə-general, həm də vətənpərvər insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır".*

**Heydər ƏLİYEV**

Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 23-də Lənkəranda anadan olub. İlk təhsilini Bakıda - Zaqafqaziya Hərbi Hazırlıq Məktəbində alıb. Bu hərbi məktəbin yetirmələri general-mayor Akim Abbasov, Sovet İttifaqı Qəhrəmanları Aslan Vəzirov, Ziya Bünyadov və qvardiya polkovniki Yusif Abdullayev Həzi Aslanovun fitri hərbi istedadından zaman-zaman söhbət açıblar. Yüksək hərbi bacarığa malik olan Həzi Aslanov təhsilini Leninqradda davam etdirib. 1929-cu ildə hərbi xidmətə başlayan qəhrəman Sovet-Fin müharibəsinin iştirakçısı olub. Həmyerlimiz hitlerçi qəsbkarlara qarşı ilk döyüşü Zoloçevdə başlayıb. 1941-ci ilin sonlarında Moskva ətrafındakı döyüşlərdə hərbi təşkilatçılıq bacarığı və şəxsi igidliyinə görə ona podpolkovnik rütbəsi verilib. İlk cəhdləri uğurlu alınan yenilməz tankçının hərbi istedadı, qələbəyə sarsılmaz inamı 1942-ci ilin 15-19 dekabrında Stalinqrad uğrunda vuruşmalarda özünü bir daha parlaq surətdə göstərdi. Stalinqrad ətrafında gedən yay döyüşlərinin qızğın vaxtlarında podpolkovnik H.Aslanovun 55-ci tank polkuna komandir təyin olunması haqqında əmr imzalandı. 4-cü mexanikləşdirilmiş korpusun tərkibinə daxil olan bu polk yeni maşınlarla təchiz olunmuşdu, hücuma hazırlaşırdı. H.Aslanov özünə xas olan tükənməz enerji ilə şəxsi heyəti və döyüş texnikasını bu əhəmiyyətli əməliyyata hazırlayırdı. Gözlənilən gün gəlib çatdı. 1942-ci il noyabrın 19-da Sovet qoşunlarının Stalinqrad ətrafında tarixi əks-hücumu başlandı. İki gün ərzində qoşunlar bir neçə cəbhədən hərəkətə keçdilər. H.Aslanovun polku podpolkovnik Diasamidzenin atıcılar polku ilə qarşılıqlı əlaqə şəraitində Satsa və Barmansk gölü rayonunda hücuma keçdi. O, döyüşün ilk anlarında düşmənin 4 tankını, 5 minaatan batareyasını, 10 əl pulemyotunu, 1 ağır topunu, 10 tankvuran tüfəngini darmadağın etdi. Yüzlərlə hitlerçi öldürüldü, 700 əsgər və zabit əsir alındı. General Volskinin döyüşçüləri Şimal-Qərb istiqamətində irəliləyirdi. Onlar noyabrın 21-də Abqanerova stansiyasına doğru irəliləyib Salsk dəmiryol xəttini keçdilər. İki gün sonra Sovetski qəsəbəsinə daxil olan tankçılar noyabrın 23-də Cənub-Qərb cəbhəsinin hissələri ilə birləşdi. Bununla da düşmənin 300 minlik qoşun birləşməsinin dövrəsindəki nəhəng mühasirə dairəsi qapandı. H.Aslanovun tankçıları döyüşün ön sırasında gedirdi. 1942-ci ilin dekabrın ortalarında alman komandanlığı mühasirəni yarmaq məqsədi ilə inadlı cəhd göstərdi. Onlar feldmarşal Paulyusa kömək üçün Kotolnikovo rayonundan feldmarşal Manşteynin tank ordusunu bura yeritdi. Başqa hissələrlə yanaşı, Verxni Kumsk xutoru ərazisində düşmənin yolunu kəsən podpolkovnik H.Aslanovun polku da faşistlərin bu qoşun dəstələrinə qarşı irəliləyirdi. Döyüşlər olduqca şiddətli xarakter almışdı. Çətin və təhlükəli olan ərazilərdə yalnız H.Aslanovun komandir tankı görünürdü. Beləliklə, bu döyüşdə fövqəladə manevr etmək bacarığına malik olan H.Aslanovun polku düşmənin 45 tankını məhv etdi, 13-nü ələ keçirdi, çoxlu top, minaatan, avtomaşın və digər döyüş texnikasını sıradan çıxartdı. Düşmən irəliləyə bilmədi. Komandanlığın döyüş tapşırığını nümunəvi yerinə yetirdiyinə, qəhrəmanlıq və şücaət göstərdiyinə, tabeliyində olan hissələrə bacarıqla rəhbərlik etdiyinə görə, SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 dekabr 1942-ci il tarixli fərmanı ilə ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

1943-cü ilin payızında 35-ci qvardiya tank briqadasının şəxsi heyəti aldığı yeni texnika ilə döyüşlərə hazırlaşdığı dövrdə polkovnik H.Aslanov Moskvada Zirehli Tank və Motorlu Qoşunlar Akademiyasına təhsil almağa göndərilir. Akademiyanı bitirmək ərəfəsində - 1944-cü il martın 13-də ona general-mayor hərbi rütbəsi verilir. Tank qoşunları qvardiya general-mayoru dünya hərb elmi tarixində "Cinahlardan zərbə" taktikasının mahir ustası kimi tanınmış sərkərdədir. O, döyüş ustalığını yorulmadan təkmilləşdirən, müxtəlif taktiki üsulları cəsarətlə tətbiq edən, dünya hərb elminə yeniliklər gətirən igid komandir idi. Azərbaycanlı general "Pravda" qəzetində dərc olunmuş "Cinahlardan zərbə" adlı məqaləsində yazırdı: "Düşmənə qarşıdan zərbə endirmək nə qədər şirnikləndirici görünsə də, mən cinahlardan zərbə vuraraq, düşməni məhv etməyi daha üstün tuturam. Düşmənin cinahlarını tapmaq və ona ən ağır yara ala biləcək yerindən zərbə endirmək heç də sadə iş deyildir, bu, hər bir komandirdən çoxlu zəhmət, ixtiraçılıq, dözüm tələb edir".

General H.Aslanov döyüşçülərə tez-tez deyirdi: "Geciksən, döyüşü uduzarsan". O, özü heç vaxt gecikmirdi. Öz tabeliyində olanları da belə öyrədirdi.

Volqa sahillərindəki istehkam qarşısında mühasirəyə alınmış faşist qoşun birləşmələri təslim olduqdan sonra H.Aslanovun tankçıları 416-cı Azərbaycan Atıcı Diviziyasının döyüşçüləri ilə qarşılıqlı əlaqə şəraitində Taqanroq şəhərini azad etdilər. Qəhrəman komandir "Mius-cəbhə" döyüşlərindən sonra Aleksandr Nevski ordeninə layiq görülür.

H.Aslanovun tankçıları Kiyevin cənub rayonlarını, Kursk, Belorusiya torpaqlarının azad edilməsi uğrunda döyüşlərdə də qəhrəmanlıq nümunələri göstəriblər. Minskin azad edilməsində iştirakına görə H.Aslanovun briqadası Ali Baş Komandanlığın əmrində qeyd edildi. Təkcə 1944-cü ildə H.Aslanovun adı Ali Baş Komandanın qələbə münasibəti ilə verdiyi əmrlərdə 8 dəfə çəkilib.

General-mayor H.Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi barədə materiallar müharibə illərində bu gün xalqımıza düşmən olan qüvvələr - ermənilər tərəfindən gizlədildi. "Haqq nazilər, amma üzülməz" deyib atalarımız. 1991-ci il iyunun 21-də ona ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanov 1945-ci il yanvarın 24-də Yelqava şəhəri (Litva) yaxınlığındakı döyüşdə qəhrəmancasına həlak olub. Döyüşlərdə komandirlik rəşadətlərinə və şəxsi igidliklərinə görə o, 11 orden və bir sıra medallarla təltif edilib. Azərbaycan xalqının sərkərdə oğlu Bakıda Dağüstü parkda dəfn edilib. Bakıda Mərkəzi Zabitlər Evi, Volqoqradda küçə, məktəb və tanker onun adını daşıyır. Lənkəranda qəhrəmanın ev muzeyi yaradılıb.

Vətəninə, xalqına şöhrət qazandıran 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun şanlı döyüş yolu müstəqil Azərbaycan Ordusunun şəxsi heyətinə ən layiqli örnəkdir...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Bakı-2015" ilk Avropa Oyunlarının ulduz elçilərinin təqdimatı olub



Beynəlxalq Muğam Mərkəzində "Bakı-2015" ilk Avropa Oyunlarının ulduz elçilərinin təqdimat mərasimi keçirilib. AzərTAc xəbər verir ki, ulduz elçilər azərbaycanlı gənclər arasında böyük həyəcan yaradacaq və daha çox insanı Oyunlara cəlb edəcəklər.

"Bakı-2015" Avropa Oyunlarının idman elçiləri siyahısında Suğra Müqabilzadə (oxatma), Nazim Babayev (atletika), Amil Həmzəyev (basketbol 3x3), Elgün Əlizadə və Murad Sultanov (velosiped idmanı), Səbinə Mikina (qılıncoynatma), Marina Durunda (gimnastika), Elmar Qasımov (cüdo), Ceyran Əliyeva (voleybol), Rövşən Bayramov və Mariya Stadnik (güləş) təmsil olunurlar.

## Bakıda "Formula-1" yarışının marşrutu daha mükəmməl olacaq



"Formula-1" üzrə gələn il Bakıda təşkil ediləcək Avropa Qran-pri yarışının keçiriləcəyi marşrutun layihəsi daha cəlbedicidir.

AzərTAc xəbər verir ki, marşrut layihəsinin dizayneri Hermann Tilke qeyd edib ki, İçərişəhərə doğru nisbətən yuxarı qalxan, sonra XII əsrə aid qala divarlarının yanı ilə uzanan yol olduqca heyrətamizdir. Yarışların keçirilməsi üçün şəhərin mövcud yolları əsasında müvəqqəti marşrut yaradılacaq. Bu yolların bir hissəsi yarışlara qədər təmir ediləcək. Avtomobillərin daha sürətli hərəkətinə imkan verəcək marşrut dünyanın digər şəhərləri, xüsusən də Monako və Sinqapurdakından fərqli və daha mükəmməl olacaq.

## Boks üzrə Azərbaycan çempionatının qalibləri müəyyənləşib



Şağan Olimpiya Kompleksində böyüklər arasında boks üzrə ölkə çempionatına yekun vurulub. AzərTAc xəbər verir ki, Salman Əlizadə (49 kq), gənclər arasında dünya birinciliyinin qalibi Məsud Yusifzadə (52 kq), 17 yaşlı Tayfur Əliyev (56 kq) , Elvin İsayev (60 kq) , Elnur Əliyev (64 kq), Elvin Quliyev (69 kq) , Haybulla Mursalov (75 kq) , Rauf Rəhimov (81 kq), Avropa çempionu, London Olimpiadasının bürünc mükafatçısı Teymur Məmmədov (91 kq), superağır çəki dərəcəsində Kamran Mehdiyev çempionatı qələbə ilə başa vurublar.

Ümumi komanda hesabında "Rabitə" birinci, "Gilan" ikinci, "Neftçi" isə üçüncü yerləri tutublar.

## Qılıncoynadanlarımız beynəlxalq turnirdə uğurla çıxış ediblər



Qılıncoynatma üzrə Azərbaycan millisi Antalyada təlim-məşq toplanışı keçirib.

AzərTAc xəbər verir ki, hazırlıq prosesi çərçivəsində millimiz qılıncoynatmanın sablya növü üzrə beynəlxalq turnirdə iştirak edib.

On yeddi ölkədən idmançıların qatıldıqları turnirdə qadınların mübarizəsində Səbinə Mikina qızıl, Sevin Bünyatova isə gümüş medal qazanıb.

Kişilərin yarışında Azər Tağıyev ikinci olub.

## Atletika üzrə Bakı şəhər çempionatı keçirilib



Respublika Olimpiya Mərkəzində atletika üzrə Bakı şəhər çempionatı keçirilib. Baş İdarədən AzərTAc-a bildiriblər ki, çempionatda 115 idmançı iştirak edib.

Kişilər arasında üçtəkanla tullanmada Nazim Babayev, 400 metr məsafəyə qaçışda Hakim İbrahimov, şüvüllə tullanmada Şimşək Əlizadə (hər üçü Neftçi İKİB), 300 metr məsafəyə qaçışda Andrey Aranoviç (Məhsul İC), uzunluğa tullanmada Kamil Əliyev (Neftçi İKİB), yadro növü üzrə Tofiq Məmmədov (Təhsil RİM), 200 metr məsafəyə qaçışda Kamran Əsgərov (BTİ), 1500 metr məsafəyə qaçışda Tofiq Bağırov (Təhsil RİM), 60 metr məsafəyə qaçışda Pərviz Ağazadə (AAF), 60 metr məsafəyə sədlərlə qaçışda Rahib Məmmədov (Ümid İK) ilk sırada qərarlaşıblar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Tibb xidməti*

# “Nə yaxşı bu peşəni seçmişəm...”

***Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində ezamiyyətdə olarkən hərbi qulluqçuların sağlamlığının keşiyində dayanan tibb işçilərinin fəaliyyəti ilə də maraqlandım.***



Məni ilk olaraq tibb xidməti leytenantı Cavid Qarayev qarşılayır. Hal-əhval tutduqdan sonra tibb məntəqəsinin müalicə və müayinə otaqları ilə tanış oluruq. Azərbaycan Dövlət Tibb Universitetinin hərbi tibb fakültəsini bitirən C.Qarayev son dövrlərdə orduda gedən ciddi dəyişikliklərin tibb sahəsinə də təsir etdiyini qeyd edir. Hərbi hissənin tibb məntəqəsində əsgərlərin müayinə və müalicəsi üçün əlverişli şəraitin olduğunu bildirən tibb xidməti leytenantı şəraitin yaxşılaşacağına inandığını bildirir.

2013-cü ildən xidmətə başladığını qeyd edən gənc zabit cəbhə xəttində xidmət etməyin qürurlu və məsuliyyətli olduğunu deyir. “Tək arzum torpaqlarımızın erməni işğalından azad olunduğu günü görməkdir”.

Növbəti həmsöhbətim feldşer vəzifəsində xidmət edən gizir Rövşən Ağayevdir. Təmkinli danışığından və söhbətindən R.Ağayevin öz işini nə qədər sevdiyi hiss olunur.

- 1993-cü il təvəllüdlüyəm, - deyir. - Artıq 3 ilə yaxındır ordu sıralarındayam. İnsan xidmətə başladığı gündən həyatı tam dərk edir. Dərk etdikcə düşünürsən, düşündükcə öz yaşından qat-qat yaşlı görünürsən. Bəzən əsgərləri müalicə edərkən düşünürəm ki, nə yaxşı bu peşəni seçmişəm. Çünki əsgərlərimizi sağaltmağın necə bir hiss olduğunu deyəcək kəlmələr tapmıram. Mən də hərbi tibb fakültəsini bitirmişəm. 2012-ci ildə xidmətə başlayarkən ilk xidmət yerim də cəbhə xətti olub. O günləri heç vaxt unutmaram. Məni qarşılayan tibb xidməti leytenantı Amid Tağıyev oldu. Hal-hazırda ehtiyatda olan A.Tağıyev mənə çox şey öyrətdi.

Tibb məntəqəsində qayğıkeş tibb bacısı Gülzadə Abbasovanın xidmətlərindən razılıq edirlər. G.Abbasova 14 ildir ki, hərbi hissədə tibb bacısı kimi fəaliyyət göstərir. Gənc vaxtlarından Vətənin keşiyində duran oğullarımızın sağlamlığını qoruyur. Hər bir əsgərə öz övladı kimi baxır, qayğısına qalır.

Ümummilli liderimiz Heydər Əliyev həkimlərdən söhbət açarkən demişdi: "Mən həmişə həkimlər haqqında danışanda Hippokrat andını yadıma salıram. Bu, təsadüfi deyildir. Heç bir başqa peşə sahibi olan, yaxud diplom alan mütəxəssis heç bir şeyə and içmir: diplomunu aldı - sərbəstdir, gedib işləyir, çalışır. Amma həkimlərdə Hippokrat andı var. Çünki həkimlik bütün başqa peşələrdən fərqli bir sənətdir, fərqli bir sahədir - həkimlik sahəsi. Ona görə də həkim gərək həqiqi həkim olsun, bunun üçün gərək onun mükəmməl həkimlik biliyi olsun, yaxşı təcrübəsi olsun və xəstənin diaqnozunu düzgün qoya bilsin, onun müalicəsinin yollarını düzgün müəyyən edə bilsin. Amma eyni zamanda, həkim gərək böyük insan olsun, həkim gərək yüksək mənəviyyata malik insan olsun. Həkim öz insani keyfiyyətləri ilə bütün başqa peşə sahiblərindən daha da yüksəkdə durmalıdır..."

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Publisistik düşüncələr*




***Uşaq vaxtı yazbaşı bənövşə yığan zaman tay-tuşlarım əllərimin qan xalına güləndə onlardan inciməzdim. O illəri unuda bilmirəm. Nədən unuda bilmirəm? - yozumu çoxdu. Başlıcası, doğma torpaqda bitən, o kola sığınmış bənövşənin mehridi; "bir ovuc torpaqdan" boy göstərib o "bir ovuc torpağı" bir ayrı biçim sevdirirdi bənövşələr...***

...1968-ci ildə İslam kişi Türkiyəyə, körpəliyindən üzünü görmədiyi atası Məminin yanına gedirdi. Məmi kişinin israrlı xahişinə (bəlkə də yalvarışına) görə İslam kişi Qarsa bir ovuc torpaq da aparmışdı. Anam deyirdi ki, İslamın apardığı göz torpağıdı, kişi dünyadan köçəndə gözünə atacaqlar. Qəriblərin, son nəfəsinə qəriblikdə yaxınlaşanların vəsiyyəti bir ovuc göz torpağıdı - bir ovuc, bircə ovuc...

...Goranboy əməliyyatında neçə yaşayış məntəqəsi ermənisizləşdirilmişdi, neçə strateji əhəmiyyətli yüksəklikdən sıxışdırılıb uzaqlaşdırılmışdı. Ortakənd uğrunda ağır döyüş gedirdi. Düşmən sonrakı döyüşlərdə bu yaşayış məntəqəsinə istinad eləməklə döyüşlərin gedişində dönüş yaratmaq məqsədi ilə direşmişdi. Döyüşün bunca uzanması qüruba meyillənmiş Günəşin rəngini saraltmışdı. Göy üzündə dolaşan qapqara bulud topaları bir-birini dümsükləyirdi. Komandir sol cinaha təzyiqi artırmaq üçün Fəğana və digər iki döyüşçüyə ayrıca döyüş tapşırığı verdi: atışı sol cinah istiqamətində aparmalı...

Döyüş səngimişdi. Üç döyüşçümüz şəhid olmuşdu, beş döyüşçümüz yaralanmışdı. Fəğan da, həmin iki döyüşçü də gözə dəymirdi. Komandirin ürəyinə daman damdı. Tələsik sol cinaha tərəf getdi...

Fəğan kiçik yoxuşu sürünə-sürünə qalxır, iki yaralı döyüşçünü qorumağa çalışırdı. İki yaralı döyüşçü, üç avtomat, dabanlarını qarsılayan güllələr - Fəğan əldən düşmüşdü. Komandiri görüncə dodaqları səyridi. Döyüşçülərin yaralandığından xəcalətmi çəkirdi, onları döyüşün içindən çıxartdığını təsəllimi bilirdi, kimsə buna məhəl qoymadı. Fəğan köks ötürdü və huşunu itirdi...

Fəğan yaralı döyüşçüləri ölümdən xilas eləmişdi. Özünün yarasından sızan qan torpağı ovuc-ovuc nəmləndirsə də, iki ağır yaralını dikdirəcən gətirə bilmişdi, "bir ovuc torpaq" eşqinə mümkünsüzü mümkün eləmişdi. Ona da ilkin yardım elədilər. Gözlərini açdı. Havadan yapışmaq istədi, əlləri boşa çıxdı. Torpağı ovucladı. Bir ovuc torpaqdan bərk-bərk yapışdı...

Xarı Bülbül niyə təkcə Qarabağımızda qönçələnir? Onun başqa məkanda dikəldiyini görən olubmu? Görən olubsa, onun boy göstərdiyi torpağa diqqət yetiribmi? Görübsə, "Onun rişələndiyi torpaqda ən azı bir ovuc Qarabağ torpağı var..." - düşünməlidi.

1992-ci ilin avqust ayı idi. Zəngilanın Şükürataz yüksəkliyindəydik. Qəribə, çox qəribə meh əsirdi. Hardan əsirdi, hara əsirdi, baş açmaq olmurdu. Gözqorxudan dərin dərənin o üzündə ermənilərydi. Qarşı tərəf döyüşçülərimizin nəzarətindəydi.

Döyüşçülərdən biri yanpörtü uzanıb istirahət edirdi. Gözləri məchul nöqtəyə dikilmişdi; blindajda qərarlaşa bilməmişdi. Bir əli avtomatın qundağını, bir əli bir ovuc torpağı sıxdıqca sıxırdı. O bir ovuc torpaqda nə hökm vardısa, ovucundan yerə qoymaq istəmirdi. "Döyüşçü üçün Vətən bir ovuc torpaqdan başlanır" - düşündüm. Torpağımıza bu mehr, bu ülfət, bu sevgi ürəyimi dağa döndərdi. Sonralar Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Yusif Mirzəyevin bir kəlamını xatırladım: Vətənin nə olduğunu döyüşçülərimizdən öyrənməliyik. Onda Yusifə heç nə deyə bilməmişdim. Sonralar Cəbrayılda, Ağdamda, Qazaxda, Zəngilanda, Murovdağda gördüyüm, tanıdığım döyüşçülərimizin iç dünyasından düşüncələrimə sızanlar qımıldadıqca Yusifin nə qədər haqlı olduğunu dərk eləmişdim. Yusifə etiraf edə bilmədim. Yusif şəhid olmuşdu. Məni tanıyanlara, milli ruhumuza sayğısı olanlara etiraf eləmişdim. Bu döyüşçü də Yusifin qürrələndiyi döyüşçülərdən biriydi. Qınayan olmasaydı, onun ovcundakı torpağı tütyə əvəzi gözlərimə sürtərdim. Ürəyim məni o döyüşçüyə sarı çəkirdi...

Düşmənin "beş addımlığında" döyüşçü qoruduğu torpağın bir ovucunu sanki oxşayırdı, o bir ovuc torpaqdan ata yurdunun mehrini alırdı. Etibar Şirin o anı tarixləşdirməyə macal tapdı. Bu kadr duyanlara əsl vətənpərvərlik dərsi olardı.

Göy üzündə dolaşan qara buludlar seyrəlməkdəydi. Göylər gözünü sıxmağa meyillənmişdi. Sıxmadı. Döyüşçünün ovcunda isinən o bir ovuc torpağın dağılmasına, islanmasına qıymadı...

...Duyana bir ovuc torpaq da Vətəndi. Bir ovuc torpağı Vətən bilənlərin ürəyi Vətən sevgisinin məbədidi...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 189
Nüsxə 4440